Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 81 saylı Beyləqan seçki dairəsi üzrə namizədliyi qeydə alınmış Allahverdiyev Vaqif Cəmil oğlu, Əliyev Raquf Məndil oğlu, Əliyev Sabir Əli oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 243 saylı Mərkəzi Seçki Komissiyasına daxil olmuş birgə müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 09 yanvar 2010-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 81 saylı Beyləqan seçki dairəsi üzrə namizədliyi qeydə alınmış Allahverdiyev Vaqif Cəmil oğlu, Əliyev Raquf Məndil oğlu, Əliyev Sabir Əli oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına 29 dekabr 2009-cu ildə daxil olmuş 243 saylı birgə müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən araşdırmaya qəbul edilmişdir.

29 dekabr 2009-cu il tarixdə namizəd Allahverdiyev Vaqif Cəmil oğlu, Əliyev Raquf Məndil oğlu, Əliyev Sabir Əli oğlu və digərləri Mərkəzi Seçki Komissiyasına müraciət edərək 23 dekabr 2009-cu il tarixdə keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Beyləqan, Təzəkənd və Orta Əlinəzərli bələdiyyələri üzrə seçki məntəqələrində səslərin sayılıb, hesablanmadan polislə birlikdə seçki sənədlərinin dairə seçki komissiyasına aparıldığını bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında mənim vəsatətim əsasında Mərkəzi Seçki Komissiyası tərəfindən qərar qəbul edilmişdir.

Araşdırma prosesində namizəd Allahverdiyev Vaqif Cəmil oğluna məxsus telefon vasitəsilə onunla əlaqə saxlanılmış və əlavə sübutlar təqdim etmək barədə hüquqları ona izah edilmişdir.

O, bildirmişdir ki, ərizədə göstərdiyi faktlardan başqa sübutlara malik deyildir.

Araşdırma nəticəsində müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır. Belə ki, 81 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının sədri A.Əliyev və digər komissiya üzvlərinin 81 saylı

Beyləqan seçki dairəsinin hər üç bələdiyyəni əhatə edən seçki məntəqələri məntəqə seçki komissiyası üzvlərinin, bələdiyyə üzvlüyünə seçilməmiş namizədlər Tağıyev İlkin Vaqif oğlu, Feyziyev Vahid İbrahim oğlu, Bəndəliyev Arzu Zakir oğlu, Ağayev Ramiz Əvəz oğlu, Məmmədov Əvəz Əbdüləzim oğlu, Əhmədov Əhməd Dadaş oğlu, Əliyev Fətullah Adışirin oğlu, Bəşirov Akif Hüseyn oğlu, Quliyev Ədalət Saday oğlu, həmçinin müvafiq seçki məntəqələrində müşahidəçi olmuş Əhmədov Ramiz Rza oğlu, Mirzəyev Anar Məhərrəm oğlu, Məmmədov Akif Əjdər oğlu, Cəmilov Telman Camal oğlu, Tarverdiyev Raqub Tarverdi oğlu, Xıdırov Zaur Əkbər oğlu, İmanov Ramiz Ramazan oğlu, Mirzəyev Natiq Hümbət oğlu, Hüseynov Yusif Bəylər oğlu, Quliyev Xaliq Xosrov oğlu, Məmmədov Famil Qədir oğlu, Abbasov Şəmsəddin Qafar oğlu, Məmmədova Validə Yunis qızının verdikləri izahatlardan Beyləqan, Təzəkənd və Orta Əlinəzərli bələdiyyələrinə keçirilmiş seçkilərdə səsvermənin qanunvericiliyin tələblərinə uyğun surətdə keçirildiyi, səsvermə prosesinə müraciətdə göstərilən şəxslərin heç bir müdaxiləsinin olmadığı, seçki qutularının açılması və səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna yol verilmədiyi, müvafiq seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokolun dərhal tərtib edilərək, ictimailəşdirildiyi təsdiq olunmuşdur. Eyni zamanda 81 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının sədri A.Əliyevin və komissiya üzvlərinin izahatında müraciət edən şəxslərin adından hər üç bələdiyyəyə seçkilərlə bağlı müvafiq dairə seçki komissiyasına heç bir şikayət və müraciətin daxil olmadığı da göstərilmişdir.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın” 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən rəyə gəldim:

1. Vətəndaşlar Allahverdiyev Vaqif Cəmil oğlu, Əliyev Raquf Məndil oğlu, Əliyev Sabir Əli oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 243 saylı birgə müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 24 saat müddətində dərc olunsun və surəti aidiyyəti şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov